# Hüseynqulu Sarabski: Səhnə fəaliyyətinin 30 illiyi...

***Xeyli vaxtdır Hüseynqulu Sarabski mənim yaradıcılığımın əsas mövzularımdan birinə çevrilib. İsti yay günündə Hüseynqulu Sarabskiyə həsr olunmuş bir kitabın oxunmasının verdiyi sərinlik, rahatlıq uzun müddət ruhumdan silinməmişdir. Yəqin ki, bu Hüseynqulu Sarabskini araşdırmağımdandır. Sarabskinin əzmi, cəsarəti məni o qədər ruhlandırırdı ki, onu araşdırmaq ən mühüm işimə çevrildi və xeyli müddətdir başladığım araşdırmanı böyük zövqlə, həvəslə nəhayət ki, tamamlamağıma səbəb oldu. Bu kitab Hüseynqulu Sarabskinin səhnə fəaliyyətinin 30 illiyi münasibəti ilə yazılmışdır. Kitab Sarabskinin şəkli ilə başlayır. Ondan sonra isə Hüseynqulu Sarabskinin əzmi, cəsarəti və dəyanəti haqqında qısa bir "dastan" başlayır. Təbii ki, kitabın istinadları da var. Belə ki, kitabda o dövrün qəzetlərinə və Sarabskinin özünün xatirələrinə də istinad olunmuşdur.***

***Kitab ilk baxışdan məni özünə çox cəlb etdi. Eynən "Köhnə Bakı" kitabı kimi idi. Sözlər belə adamı sərinləşdirirdi. Ona görə də belə qənaətə gəldim ki, yəqin ki, araşdırma aparmaq üçün indi nə tez, nə də gec, elə düz vaxtıdır.***

***Sarabskini aldatmağa çalışan münəqqidlərdən də az bəhs olunmur. Həmin münəqqidlərin adları barədə çoxlarının məlumatı yoxdur. Lakin Sarabskinin bütün ömrü yaddaşlardadır. Ancaq ilk dövrlərdə münəqqidlərə dastan yazılarkən Sarabskinin adı belə çəkilmirdi. Sarabski zəhmətinin bəhrəsini tez gördü. Ona görə də bu dünyadan çox bəxtiyar köçdü. O günlərin keçmişdə qaldığı xəbərini alan hər kim olsa ən azı Sarabskidən çox sevinər.***

***Kitabın orjinal versiyasında bəzi yerlərində sətirlərin altından xətt çəkilib. Yəqin ki, bu da gec-tez araşdırılacaqdır. Mövzudan uzaqlaşmadan kitabı diqqətinizə təqdim edirəm. İnanıram ki, bu araşdırmadan zövq alacaqsınız.***

***Arxivlər tez-gec açılacaqdır, əsas odur ki, nə vaxt... tez, yoxsa gec... Tez açılsa, hamı bəxtiyar olacaq və ondan bəhrələnəcək, gec açılsa insanlar "sonrakı peşmançılıq fayda verməz və ya daldan atılan daş topuğa dəyər " kimi atalar misalını xatırlayaraq yenə də kitablardan istifadə edəcəklər.***

**Araşdırmaçıdan.**

1922-ci ildə mərhum Mirzə Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) səhnə fəaliyyətinin 20 illik bayamı keçirilən Hüseynqulu Sarabskiyə yazdığı təbrikdə bu xalq artistimizi "səhnəmizin yaraşığı" adlandırmışdı.

O gündən 10 ildən artıq keçmiş, lakin, Mirzə Cəlilin Hüseynqulu Sarabskiyə verdiyi bu qiymət əhəmiyyət və dəyərini itirməmişdir.

Çünki, Hüseynqulu Sarabski əski avam, mürtəci və çirkin mühitlə vuruşma və çarpışmada iştirak etmiş, xalqda oyanan talantları boğan hökmranlıq edən siniflərin amansız təzyiqinə baxmayaraq, Bakıda kapitalizmin inkişaf etdiyi vəhşi dövrdə bir işçi sifətilə çalışdığı halda savadsız xalqla danışmaq üçün yeganə siyasi tribuna olan teatronun tərəqqisi uğrunda bir "bığsız-arsız", "oyunbaz" kimi unudulmaz xidmətlər göstərmişdir.

Sarabskinin türk teatrı tarixinin yarısı dövrünü əhatə edən səhnə fəaliyyətinə atıldığı zaman bütün Azərbaycan ölkənin iqtisadi və siyasi cilovunu əlində bərk tutan rus çarizminin şporlu çəkməsi və qamçısı altında inləyirdi.

Bəy və xanların zülmü nəticəsində əsas kəndli kütlələri içərisində aclıq və dilənçilik artır. Dünənki rəiyyətlər Bakıya tərəf axın-axın axır və burada xüsusi sahibkarların mədən, fabrik və zavodlarının darvazaları qarşısına bir ucuz işçi qüvvəsi kimi toplanmağa məcbur olurdular.

Bakı şəhəri əhalisinin əməkçi təbəqələrinin halı, yoxsul kəndlilərin halından yaxşı deyildi. Buranın bir çox yoxsulları, şəhərin ətrafındakı daş karxanalarında neftin hədsiz-hesabsız gəlirindən varlanan insanların dəbdəbəli və zəngin saraylarının tikilişi üçün yonulmuş daş hazırlayırdılar.

Səhnə fəaliyyətinin 30 illik yubileyini keçirdiyimiz Sarabski dəxi, həmin karxanada çalışan yoxsullardan biri idi.

Bakının İçəri Şəhərindəki "doqquzlar məhəlləsi"ndə anadan olan Sarabski atası Hacı Qara oğlu Məlik kimi, dili söz tutandan başqalarına muzdla işləyərək pul qazanmaqla məşğul olur.

Sarabski fırtınada gəmiylə bərabər suya qərq olan atasından sonra Mollabacının Quran dərslərindən (heç Quran dərsi də keçilmir, iş gördürülürdü) əl çəkib uşaqları çubuqla döyə-döyə onlara papaqçılıq əvəzinə dəri yumaq sənətini öyrədən papaqçı Məşədibabanın yanında şəyird kibi çalışır.



**H.Sarabski, 1941-ci il**

Papaqçılıqdan-palçıqçılığa, palçıqçılıqdan-ağ daş yonmağa, ağ daş yonmaqdan-bənnalığa və nəhayət, tərsanədəngəmi işçiliyinə - budur gənc Hüseynqulunun "tərəqqi pillələri".

"Mən yayda ciddi işləyib bir az pul yığdım ki, qışda gecə kursunda oxuduqda daha işləməyim. Mənim üçün həm işləmək, həm dərs oxumaq çətin idi

O zamanlar daş yonardım. Daşın yüzünü əlli qəpiyə yonardıq. Səhər saat altıda işə girib, saat dördə qədər işlərdik. Yoldaşlarım gedəndən sonra iki saat artıq işləyib, 50 daş artıq yonardım. Hər ay 6-7 manat qazancımdan daldalayardım. Beləliklə, məktəb vaxtınadək 5 ay müddətində 40 manat pul yığmışdım. Fəqət çox arıqlamışdım. Çəkicin dəstəsi əllərimi qabar edib daşa döndərmişdi". (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri".

Zəhmətli və qayğılı günlərini unudub quduran bəzi qeyri-millət milyonçularının olduğu dövrdə Hüseynqulu Sarabski bu kibi hünər göstərməkdən belə boyun qaçırıb, başqa meyllərə düşür.

Sarabski Nəriman Nərimanovun rəhbərliyi altında çalışan türk əməkçi ziyalılarına qoşulub onlarla bərabər geniş türk əməkçiləri arasında mədəniyyətə, azadlığa doğru həvəs oyatmağa çalışır. İlk dəfə 1902-ci ildə Hüseynqulu Sarabski Nərimanovun təşkil etdiyi dram dərnəyinin yığıncağına gedir.

Orada "Hamı cəm olduqdan sonra Məhəmmədəli bəy izahat verdi ki, bir neçə yoxsul tələbələr nəfinə bir tamaşa vermək istəyirlər. Hamı razı oldu. Yoldaş Nərimanovun rejissorluğu ilə onun pyesi olan "Dilin bəlası" komediyasını oynamağı qərara aldıq. Rollar paylandı. Rəsulun rolunu mənə verdilər və roldan əlavə pyesə lazım olan paltarların tapılmasını da mənə həvalə etdilər." (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri".) Sarabski teatro fəaliyyətinə atdığı ilk addımda belə böyük çətinlik və maneələrə rast gəlir.

Belə ki, "Paltar barəsində səhnəmiz olduqca əziyyət çəkirdi. Qadın paltarı nə teatroda vardı, nə də bir yerdən tapmaq olurdu. Çünki, arvad paltarından ötəri heç kəsə müraciət etmək olmazdı.

Çox fikirləşəndən sonra, ümidim hər şeydən kəsildiyindən, gedib evdən nənəmin və xalalarımın toy-qonaqlıq paltarlarını gizli surətdə oğurlayıb aparmaq fikrinə düşdüm. Bu fikrimi yerinə yetirməyə vaxt axtarırdım. Gecə onları oğurlayıb başımın altında gizlətdim. Sabahı teatroya apardım.

1902-ci il iyun ayının birində "Dilin bəlası" komediyasında birinci dəfə Rəsulun rolunda səhnəyə çıxacaqdım.

Müvəffəqiyyətlə keçən tamaşa bitdi, lakin, mənim işim bitməmişdi. Evə gəlib gizlincə paltarları yerə qoyam, demə evdəkilər məsələni anlamışlar. Qapını açar-açmaz mənim üstümə hücum etdilər. Özümü itirdim, ağızlarına gələn sözləri mənə dedilər.

"Elə bu qalmışdı ki, bizim paltarlarımızı oyunbazxanalara aparıb xalqın qabağında göstərəsən. Bərəkallah sənə, tfu sənin üzünə! Utanmaz, həyasız, dinsiz!

İşi şuluq görüb, yalvarmağa başladım. Evdə abrımı almaları ovqatıma soğan doğradı.

Səhər dayım oğlu Nemət məni danlayaraq dedi: "Hüseynqulu, imdiyə qədər hər nə eyləmişsən biz sənin üçün keçirik. Atam, qardaşım bu bir yol deyil ki sən gedirsən. Adam da ana-bacısının paltarını aparıb xalqa göstərər? Bu ki, bir kişilik deyil. Sabah xalq eşidib, bizə nə deyər?

Burda başqa adam yoxdur, özümüzük. Əgər istəyirsənsə özünə gün qazanasan, camaat arasında hörmətin olsun, ev-eşik sahibi olasan, gərək axund otağına gedəsən, məscidə gedəsən, qiraət öyrənəsən, şəriət buyurana əməl edəsən. Gərək sən düz yola qayıdıb teatrdan əl çəkəsən. Axırıncı sözümüzü sənə deyirik, əgər bunlara əməl etməsən, bizim Hüseynqulu adlı qohumumuz yoxdur!" O, bu sözləri deyib getdi. Mən durduğum yerdə xəyalata getdim. Yoldaş Nərimana rast gəldim və bütün başıma gələn macəranı ona söylədim.

Nəriman bu söhbətləri dinlərkən qəmgin olub dedi: "Hüseynqulu, sən əgər istəyirsən camaat arasında adın olsun, mətbuatdan xəbərdar olub, camaatına qulluq edəsən, gərək ziyalılardan əl çəkməyib, heç bir boş sözə qulaq asmayasan, avam camaatın və qohumların zərbəsinə davam edib səhnədə çalışmalısan.

Bizim teatromuz belə qalmayacaq, bizim səhnəmiz yüksələcəkdir, bir gün gələcək ki, səni vurub-döyüb, söyən camaat səni alqışlayacaq. Buna inan və məsləyində möhkəm dur!" (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri").

Nərimanovun ətrafında toplaşan ziyalılar teatro vasitəsilə tamaşaçıları dərin yuxudan ayıltmağa çalışması ilə bərabər eyni zamanda, tamaşa verməklə pul toplayıb, məktəb və qiraətxana açmaq, yoxsul tələbələrə yardım etmək kimi yüksək məqsədlər daşımışlar.

Hacı Zeynalabdin Tağıyev də ziyalıların bu təşəbbüsünü alqışlamış və hətta bəzən pul buraxaraq "Nəşr maarif cəmiyyəti" açmışdı.

Sarabskinin və onun kimi irəlidə gedən düşüncəli səhnə işçilərinin böyük xidməti, yalnız mürtəce mühitin təqibinə baxmayaraq, aktyorluq etməsi deyil, bəlkə, teatro vasitəsilə əməkçi xalqını cəhalətdən, nadanlıqdan, vəhşilikdən xilas edərək maarifə atılmalarına konkret yardım göstərməsidir.

O zaman mədəni cəbhədə irəlidə gedən, düşüncəli inqilabi əhval-ruhiyyəyə malik əməkçi ziyalıların arasında olan fərq, əsasən ondan ibarət idi ki, birincilər türk kütlələrinin savadlanmasında öz cibinin şişməsini gözlədikləri halda, ikincilər kütlələrin elm və mədəniyyətə alışmasında mühitin zülmətindən və sinfi bərabərsizlikdən xilas olmaq çarəsi və dərmanı görürdülər. Bunların da irəli gedən nümayəndəsi Nəriman Nərimanov idi ki, birinci müəllimlər qurultayında istismarçı ikiüzlüləri cəmiyyət qarşısında ifşa etdi.

Hüseynqulu Sarabski isə Nərimanovun təsiri altında 1906-cı ildə "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o da çıxar qaşığına" adlı yeni teatro əsəri yazaraq, avamlıq və nadanlığa zərbə endirməklə kömək əlini uzatmışdır.

Belə həvəslə vuruş meydanına atılan Sarabski kimi əməkçi ziyalılar silahsız, köməksiz, pək aciz bir halda qalmışdılar. Belə ki, "Repertuar yox, artist yox, aktrisa yox, səhnə yox, teatro belə yox, - amma, düşman çox.

Bir tərəfdən mollalar, bir tərəfdən çar hökuməti, bir tərəfdən də bəzi tapançalı müsəlmanlar. Bizim üstümüzdə 3 sansor vardı, biri tamaşa vermək üçün hökumət, sonra mollalar və bir də qoçular.

Min zəhmət və məşəqqətlə onlardan icazə aldıqdan sonra tamaşa verilmək üçün səhnə axtarırdıq.

Tağıyev teatrının qarşısında bir neçə gün boynumuzu burub dayanırdıq. Vasitə, minnət və rica ilə ayda 2-3 dəfə teatro verərdik. Oyun günü salondan ayaqaltı (daroşkalar) yığılardı. Səhnə və salonun işığı əksildilir, layiqli və təzə dekorlar verilməzdi.

Burada pulları qabaqca alınmamış tamaşanın başlanmasına qoymazdılar. Odur ki, biz də kassada pul düzəlməsini gözləyərdik.

Pulu düzəldib verəndən sonra tamaşanı saat 10-da başlardıq. Pyes seçdikdə elə pyes götürərdik ki, arvad rolu az olsun. Çünki, arvad məsələsi gözümüzün qabağında böyük bir dağ kimi durmuşdu.

Hansı pyesdə arvad çox olsa, kişilərə arvad rolu verib, tamaşanı çətinliklə keçirərdik." (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri".).

Belə vəziyyət içərisində çalışan artistlər mömin müsəlmanlar tərəfindən təqib edilirdi.

"Bir dəfə Nəcəf bəy Vəzirovun "Yağışdan çıxıb, yağmura düşdük" adlı komediyasını oynayırdıq. O komediyada Hacı Qəmbər nökərinə deyir:

"Ay gədə, Molla Səfini çağır gəlsin."

*(Davamı var)*

***İ.CAHANGİROV***